# İSA HƏBİBBƏYLİ: NAXÇIVAN ƏDƏBİ MÜHİTİ HAQQINDA



*Salatın ƏHMƏDLİ,*
*filologiya üzrə fəlsəfə doktoru*

## *I məqalə*

*(Əvvəli ötən sayımızda)*

Hüseyn İbrahimovu keçən əsrin əvvəllərindən başlanan “kiçik hekayə janrı ənənəsinin” uğurlu davamçısı bilir. Onun kiçik formalarda yazılmış hekayələrində həyatın böyük və ciddi məsələləri özünün bədii əksini tapdığını, qələmə aldığı çoxcəhətli əhvalat və obrazların mərkəzində, əsasən, bir meyar - “ləyaqət” dayandığını söyləyir: “Müəllif təsvir etdiyi hadisə və personajları qiymətləndirmə barometrinə çevirdiyi bu yüksək mənəvi keyfiyyəti aşkarlamaq niyyəti ilə hər dəfə yeni hadisəyə müraciət etmiş, aralarında müəyyən bənzəyiş olsa da, bir-birini təkrar etməyən vəziyyətlər yaratmışdır. O, “özü balaca, işi böyük olan” hərbi xəstəxananın ibrətamiz qaydalarını (“İnam”), bütün yuxularını doğma kəndi Kosalarda görən qocaman alimin xəyal dünyasını (“Kənd həsrəti”), ezamiyyətdən qayıdan köhnə tanışların ku pedə təsadüfən “təmiz adam”ın natəmiz əməllərini (“Təmiz adam”), əlçatmaz bir eşqin hekayətindən söz açan köhnə onluqla bağlı təsirli xatirələri (“Köhnə onluq”) qələmə almaqla hekayə üçün zəruri olan detalların konkretlik və emosionallığına müvəffəq olmuşdur”. Məktəbli uşaqların quş yuvalarını uçurtmaları (“Kərim əmi”), atası cəbhəyə gedəndən sonra doğulan ovqatda ad qoyulmaması (“Səfər müəllimin qızı”), qoca nənənin illərdən bəri toplayıb balıncın içində saxladığı pulla alınan “Jiquli”nin “Nazbalış” adlandırılması (“Nazbalış”), nişanlısının arxasınca könüllü cəbhəyə yolu düşən və həlak olan Yazgüldən yadigar qalmış şəkli (“Şirin xatirə”) kimi ilk baxışda adi görünən detallar da hekayələrdə insan ləyaqətinin məharətlə üzə çıxarılmasına, bunun əksinə olan naqis meyllərə kəskin münasibət bəslənməsinə səbəb olduğunu süyləyən İ.Həbibbəyli bunu da qeyd edir ki, “hekayələrindəki həqiqi insani ləyaqət axtarışları onun fərdi ləyaqəti ilə səciyyələnən obrazlar yaratması ilə nəticələnmişdir.

“Döyüşdə aldığı ağır yaradan ölən oğlunu dəfn edən” kimi dərhal hərbi xəstəxanaya qayıdaraq yenicə gətirilmiş əsgəri çətin cərrahiyyə əməliyyatı sayəsində həyata qaytaran tibb elmləri doktoru Şalva İrakliyeviç, inamı özünə deviz seçən Yelmar Zərgərli, uşaq ikən ata-anasını itirsə də, mənliyini uca tutan məsum Sabirə, Vətən elminin dünya şöhrəti qazanması yollarında can-başla xidmət göstərən professor Qoşqar Çinarlı, “işi də ürəyi kimi təmiz olan” taksi sürücüsü Sabir, ömrü boyu şərəfli əməyə bel bağlayan neftçi Fərrux kişi, iradə və sədaqəti ilə xəstə həyat yoldaşı üçün əvəzedilməz məlhəmə çevrilən Şadiyyə kimi hekayə qəhrəmanları ləyaqətin ucalıüını, əvəzedilməz bütün təbiiliyi ilə mənalı bilir. Yazıçı öz növbəsində pis niyyətli, köhnə fikirli, cəmiyyətə fayda verməyən adamları oxucunun mühakiməsinə verməklə də estetik idealın bütöv, inandırıcı təqdiminə səy göstərdiyini, bu isə onun epik üslubuna satirik notlar daxil etdiyini vurğulayır.

Hekayələrindəki satira elementlərini araşdırır, Azərbaycan satirik nəsrinin ənənələrindən yaradıcılıqla faydalanan Hüseyn İbrahimov indiki həyatımızda klassik novella “qəhrəmanları” ilə qarşılaşarkən “Sənə min rəhmət” Mirzə Cəlil”, yaxud “Heyf, Mirzə Cəlil sağ deyil” kimi yerinə düşən, “cəlbedici epiqrafların gur işığı altında ənənəvi gülüş obyektinin müasir vəziyyətini bacarıqla” açıb göstərdiyini, “Arxayın Məmməd”, “Day lazım olmadı”, “Yeddinci meyid”, “Zırrama”, “Müdirin naziri”, “Barıt”, “Nərd”, “Eyvazovun salamı”, “Yersiz vahimə”, “Çaybaz Nəcəf”, “Menzurka” - satirik novella janrının tələblərinə tam cavab verən uğurlu nümunələr, bunlarda hadisələrin “klassik novellalarda olduğu kimi qısa zaman intervalında sürətlə” cərəyan etdiyini, ənənəyə uyğun olaraq adi deyil, qəribə hadisələrin hərəkətverici qüvvə funksiyasını daşıdığı, qoca məzarçı Şirinoğlunun Mirzə Səidə ərizə yazdırıb haqqını ödəməməsi ilə Mirzənin ona qışın şaxtasında yalandan anasının ölüm xəbərini çatdıraraq qəbir qazdırmasının və vaxtı ilə cavabı (“Day lazım olmadı”) özünə qaytarmasının, yaxud dəllək Sərxanın qonşuların nəzərində peşəsini pərdələmək niyyəti ilə simsiz tarda maqnitafona yazılmış musiqinin müşayiəti ilə bağlamalarını gəzdirməsi nəticəsində “Sinxron əmi” ləqəbini qazanmasının təsviri”ni “gülüş doğuran qəribəliyin orijinal bədii ifadəsi” kimi qiymətləndirir.

Hüseyn İbrahimovun epik təhkiyəsində nəzərə çarpan “sakit, təmkinli təsvir”in hekayədən povestə keçidi bədii baxımdan əsaslandırdığını, həcmcə hekayələrindən böyük povestlərində Hüseyn İbrahimovun “özünəməxsusluğu, orijinal dəstxətti” aşkar nəzərə çarpdığını qeyd edir. Burada da “mənəviyyat, ailə-məişət məsələlərinin ön mövqeyə çəkilməsi”, yalnız sevinc və fərəhi, xoşbəxtliyi deyil, təbii insan kədəri və ağrılarını da bədii ədəbiyyatın materiallarına çevirməsi əsas aparıcı xətti təşkil etdiyini yazır. “Göyərçinin məhəbbəti”, “Səhv edəndə”, “Qu quşları öləndə oxuyurlar” povestlərini təhlil edir.

Hüseyn İbrahimovun “Baharın hekayəsi”ni həm də hekayə yaradıcılığının yekunu, nəsrin iri formalarına keçidinin başlanğıcı olduğunu, romançılığa meylinin də ilk dəfə “Baharın hekayəsin”ndə müşahidə olunduğunu bildirən İ.Həbibbəyli bu fikirdədir ki, “bütövlükdə Hüseyn İbrahimov bir yazıçı kimi “Baharın hekayəsi”ndən doğulmuşdur. Bu povest təcrübəsizlik ucbatından ötəri meyllərə uymuş və yanılmış, peşman olmuş zavallı Baharın hekayəti, əsərin müəllifi Hüseyn İbrahimovun isə yazıçı kimi layiqli təqdimatıdır”. Rəsul Rza bu povestlə bağlı fikirlərini (“Hüseyn İbrahimovun “Baharın hekayəsi” povesti ciddi yaradıcılıq işinin məhsuludur.

*(Monoqrafiyadan)*

Buradakı hadisələrin həyatiliyi ayrı-ayrı obrazların inandırıcı, məqsəd aydınlığı və əsərin ümumi ruhundan çıxan tərbiyəvi mənası bizə bu əsəri... nəsr əsərlərimizin yaxşı nümunələri sırasına qoymağa haqq qazandırır”) diqqətə çəkən İ.Həbibbəyli bu əsərin uzunömürlülüyünü, “müstəqillik dövründə də Azərbaycan nəsrinin layiqli nümunəsi” kimi dəyərli olduğunu yazır: “Hüseyn İbrahimovun “Bahar yağışı”, “Günəş doğan yerdə”, “Əsrin onda biri”,



“Böhtan” romanlarında epik təsvirin genişliyi, çoxşaxəliliyi, mövzunun dərinlik və əhatəliliyi, millilik və xəlqilik, tarixilik və müasirlik ön mövqeyə çəkilmişdir. Bu əsərlər yalnız həcminə görə deyil, qaldırdığı problemin dəyərinə, siqlətinə, insan talelərinin çoxsaylı süxurlarından bir neçə qatı açıb sökə bilməsinə, zəngin surətlər aləminə görə romandır”.

Böyük memar Əcəmi Naxçıvaniyə həsr olunmuş “Əsrin onda biri” romanında sənətkar taleyi, zaman və şəxsiyyət problemləri “bacarıqla” əks etdirildiyini, “yeni dövr Azərbaycan tarixi romanının dəyərli nümunəsi” kimi qiymətləndirir. Əsərdə ədəbiyyat tariximizdə ilk dəfə olaraq Şərq memarlıq məktəbinin banisi, məşhur memar Əcəmi Naxçıvaninin bədii obrazı yaradıldığı, bununla belə, romanda “Cahan Pəhləvanın hakimiyyəti dövrünün siyasi-tarixi hadisələri bədii sözün gücü, imkanları” vasitəsilə dəyərləndirilməsi, yazıçının Əli Şimşək obrazı ilə “sənətkar və xalq, həmçinin hakimiyyət və xalq münasibətlərini mənalandırmağa” müvəffəq olması, tarixi romanın Əcəmi Naxçıvaninin dövrü, mühiti və müasirləri haqqında əyani təsəvvür yarada bilməsi, əsərdə tarixiliklə müasirliyin vəhdəti işıqlandırılır.

Hüseyn İbrahimovun Əcəmi dövründən alınmış mövzu və ideyalar, habelə obrazlar vasitəsilə yeni dövrün insanlarına ibrət və sənət dərsləri aşılamasını yazıçının “Böhtan” romanında da nəzəri cəlb etdiyini, bu romanda yaxın dövr tariximizin qaranlıq səhifələri işıqlandırıldığı bildirirlir.

Hüseyn İbrahimovun nəsrimizə ilk dəfə olaraq Azərbaycan romantizminin banisi Hüseyn Cavidin bədii obrazını gətirməsi, romanda keşməkeşli taleyə malik olan Hüseyn Cavidin həyatının müxtəlif məqamları öz əksini tapdığı, yazıçının Cavid Əfəndinin həyatından “təsirli məqamları ön mövqeyə” çəkdiyi qeyd edilir: “Hüseyn Cavidin həyatının Naxçıvan, Təbriz, İstanbul, Tiflis, Bakı və Sibir dövrləri geniş mənada şəxsiyyət fonunda epoxanın bədii təqdimi təəssüratı yaradır. Müəllif bu mərhələləri bədii cəhətdən əks etdirərkən təxəyyüllə yanaşı, elmin son nailiyyətlərindən də yaradıcı şəkildə faydalanmışdır. Bundan başqa, Hüseyn Cavidin dövrünü dolğun və gerçək təqdim etmək məqsədilə müəllif onun müəllimi Məhəmməd Tağı Sidqi, müasirlərindən Məhəmmədağa Şahtaxtlı, Əliqulu Qəmküsar, Rza Təhmasib kimi şəxsiyyətlərlə münasibətlərini, habelə qanlı “troyka”nı təmsil edən “qarayaxalı” şəxslərin faciəsini də diqqət mərkəzinə çəkmişdir”. Eyni zamanda “Böhtan” romanında muşahidə edilən romantik üslubdan cizgiləri və notları” Hüseyn Cavidin yaradıcılığının xarakteri ilə münasib uyğunluq yaratmaq niyyətindən irəli gəldiyini yazır. Hüseyn İbrahimovun “çeşməkli məhbus” olan görkəmli şair Hüseyn Cavidin timsalında “böhtanın, şərin, şantajın ağır, acı nəticələrini, törətdiyi məşəqqətləri düşünülmüş gerçək vasitələrlə” göz önünə gətirməsi, müəllifin böhtanın mahiyyətini açıqlamaqla yanaşı, böhtançılıq fəlsəfəsinə ümumiləşmiş yazıçı qiyməti verməsi qiymətləndirilir.

Hüseyn İbrahimovun dramaturgiyasını araşdıran İ.Həbibbəyli onun Cəfər Cabbarlının “Aslan və Fərhad” hekayəsi əsasında “Qardaş ürəyi” faciəsini, “İtirilən sağlıq” və “Torpağın övladları” pyeslərini qələmə aldığını açıqlayır. “İtirilən sağlıq” pyesinin Naxçıvan Dövlət Musiqili Dram teatrında uğurla tamaşasını qeyd etməklə yanaşı ədəbiyyatşünas alim bu qənaətdədir ki, “Hüseyn İbrahimov xalis nasirdir”. Onun dramlarında da epik əlamətlərin dramaturji vasitələrdən daha qabarıq olduğunu bildirir. Hüseyn İbrahimovun “Nəciblik” hekayə kitablarının da birini “Nəciblik” adlandırmasını yazıçı şəxsiyyəti ilə bağlayır: “Bizcə, nəciblik Hüseyn müəllimin şəxsiyyəti, xasiyyəti, əməl və rəftarı üçün də qabarıq görünən cəhətlərdən biridir. Bundan başqa, yazıçının yaradıcılığının estetik idealını, ideya-mənəvi qayəsini də, ləyaqət, nəciblik təşkil edir. O, şəxsi nümunəsi, qələmi və əsərləri ilə bütövlükdə nəcibliyin keşiyində dayanmışdır. Hazırki şəraitdə nəciblik fəlsəfəsini sərtləndirən daxili saflıq, müdriklik, əxlaqi kamillik və bütövlük kimi mənəvi dəyərlərə çağırmaq ciddi yazıçılıq və vətəndaşlıq işidir”.

İsa Həbibbəyli Azərbaycanın xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına dair apardığı araşdırmalarla zəngin ədəbiyyatşünaslıq fikirlərini bölüşməklə yanaşı, dövrümüzün böyük yazıçısı kimi onun əsərlərinin ideay istiqamətlərini, onun bədii yaradıcılıq imkanlarının zənginliyini, Hüseyn İbrahimov şəxsiyyətinin özünəməxsusluğunun bədii yaradıcılığına inikası məsələlərini geniş şəkildə işıqlandırmışdır. Azərbaycan nəsrinin müasir vəziyyəti baxımından ayrıca bir yazıçı - Hüseyn İbrahimov yaradıcılığı əsasında qənaətlərini söyləyir. H.İbrahimovun əsərlərindəki mövzular, böyük şəxsiyyət Hüseyn Cavidin ömür yolunun tarixi romanın mövzusu kimi götürməklə bu işin öhdəsindən layiqincə gələbilməsini araşdıran İ.Həbibbəyli ədəbi-tənqid cəhətdən xarakterik olan məsələlərə aydınlıq gətirir. Az yazılan, az münasibət bildirilən yazıçıların, istedadlı şəxsiyyətlərin yaradıcılığına dair bu məqalə də aktualdır.